**UOT: 338.431.4**

# AQRAR SAHƏDƏ BAZAR İNFRASTRUKTURUNUN İNKİŞAF MEXANİZMİ

**Müşfiqə Əjdər qızı Məmmədova, i.ü.f.d, dosent**

***Aqrar Tədqiqatlar Mərkəzi, baş mütəxəssis***

***e-mail: mushfiqa38@gmail.com***

***Xülasə***

*Məqalədə bazar infrastrukturunun xüsusiyyətləri, habelə aqrar sahənin inkişafı ilə bağlı infrastrukturun formalaşmasına qoyulan tələblər açıqlanır. Həmçinin məqalədə bazar infrastrukturunun inkişafının əsas istiqamətləri araşdırılır və müvafiq qiymətləndirmələr aparılır. Məqalədə göstərilir ki, müasir dövrdə inkişaf etmiş bazar infrastrukturunun mövcudluğu aqrar istehsalının genişləndirilməsi, habelə məhsulların istehlakçılara itkisiz çatdırılmasının mühüm amillərindən biridir.*

***Açar sözlər:*** *bazar infrastrukturu, aqropark, innovasiya, topdansatış, pərakəndə satış, logistika.*

## Giriş

Ölkəmizdə sahibkarlığın inkişafı məqsədilə aqrobiznes mühitinin daim yaxşılaşdırılması və bunun nəticəsində inkişaf strategiyasının əsas prioritetləri kimi yüksək keyfiyyətli, ixracyönümlü və rəqabətqabiliyyətli məhsulların istehsalının genişləndirilməsi ardıcıl həyata keçirilir. Son illər ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsal həcmi əhəmiyyətli dərəcədə artır, hal - hazırda ölkə əhalisinin ərzaq və kənd təsərrüfatı xammalına olan tələbatının əsas hissəsi yerli istehsal hesabına ödənilir. Ölkəmizin ixrac potensialının formalaşmasında böyük rol oynayan kənd təsərrüfatının inkişafının daha da sürətləndirilməsi məqsədilə müəyyən ərazilərdə yeni satış yerləri, logistik və ticarət mərkəzləri yaradılır. Burada xidmətlərin səviyyəsi və keyfiyyətinin yüksəldilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

## Aqrobiznes sferasında bazar infrastrukturunun xüsusiyyətləri

Aqrobiznesin inkişafına dəstək kənd təsərrüfatı məhsullarının istehsal sahələrinə və əsas ticarət marşrutlarına yaxın yerləşən, genişmiqyaslı və ixracyönümlü aqroparkların, aqrobiznes inkubatorlarının yaradılmasına əsaslanır. Azərbaycanda aqroparklar yaratmaqla fiziki və sosial infrastruktura dövlət tərəfindən ayrılan investisiyaların səmərəliliyini artırmaq, ölkənin logistika qovşağında rəqabətədavamlılığını gücləndirmək, qida sənayesi və kənd təsərrüfatı məhsullarının istehsalı sektorlarına investorları cəlb etmək və s. bu kimi müxtəlif məqsədlərə nail olmaq mümkündür.

Bu zaman bazar infrastrukturları daha mühüm rol oynamaqla kiçik və bir qayda olaraq innovasiyayönümlü müəssisənin yaradılması və inkişafına kömək edirlər. Bu funksiya getdikcə daha vacib əhəmiyyət kəsb edir, çünki vaxt keçdikcə yeni müəssisənin bazara çıxışı tədricən artmaqda olan rəqabət üzündən mürəkkəb xarakter alacaqdır. Bildiyimiz kimi bazar infrastrukturunun əsas vəzifəsi maraqlı biznes ideyanı aşkara çıxarmaq, onun biznes layihəsinə çevrilməsinə kömək etmək, məhsul və xidmətlərin buraxılışına yardım göstərmək və onlarla bazara çıxışı təmin etməkdən ibarətdir. Lakin bütün bu vəzifələr, xüsusilə də bazara çıxışa yardım göstərmək kifayət qədər mürəkkəbdir. Buna yalnız ölkə daxilində düzgün biznes siyasəti aparmaqla, biznes infrastrukturunun işlək mexanizmlərini hərəkətə gətirməklə nail olmaq mümkündür. Azərbaycanda və onun ayrı-ayrı regionlarında bazar infrastrukturun bu funksiyası yerli müəssisələrin köhnə və yeni bazarlara çıxışı zamanı daxili və xarici rəqabətin güclənməsi səbəbindən mürəkkəb vəziyyətin yaranması ilə əlaqədar daha vacib əhəmiyyət kəsb edir.

Azərbaycanda bazar infrastrukturuna təkamül xarakterli spesifik xüsusiyyətlər xasdır. Həm nəzəri-metodoloji sahədə, həm də təcrübədə bazar infrastrukturu konsepsiyasının reallaşdırılması zamanı bir sıra problemlər meydana çıxır. Belə problemlərə bazar infrastrukturunun təşkilati formalarının düzgün müəyyən edilməsi, infrastrukturun yaradılmasında beynəlxalq təcrübəni öyrənib ümumiləşdirməklə Azərbaycanda onun səmərəli tətbiq variantlarının tapılması, bu infrastrukturun formalaşması problemlərini aşkara çıxarıb, onların aradan qaldırılması yollarına dair təklif və tövsiyələrin verilməsi və s. sayılır [4, 6].

Bazar infrastrukturunun vacib elementlərindən biri də kiçik biznesə təkan verən biznes infrastrukturudur. Biznes infrastrukturun təşkilati modellərini yaradarkən nəzərə almaq lazımdır ki, ölkəmiz üçün aktual olan əlverişli sahibkarlıq və rəqabət mühitinin yaradılması, həmçinin yeni iş yerlərinin açılması, istehsalın genişləndirilməsi, bir çox sənaye sahələrinin inkişafı, daşınmaz əmlakdan səmərəli istifadə və digər belə problemlərin həlli ön planda dayanır.

Qeyd olunanları nəzərə alaraq göstərmək olar ki, aqrobiznesin inkişafı məqsədilə regionlarda bazar infrastrukturunun yaradılması problemləri və onların həlli yollarının müəyyənləşdirilməsi prioritet vəzifələr sırasında yer alır.

**Bazar infrastrukturunun inkişafının əsas istiqamətləri**

Müasir şəraitdə inkişaf etmiş bazar infrastrukturunun mövcudluğu aqrar istehsalının genişləndirilməsi, habelə kənd təsərrüfatı istehsalının və ərzaq bazarının dövlət tənzimlənməsi tədbirlərinin səmərəli təşkili baxımından mühüm əhəmiyyətə malikdir. Aqrar sahədə bazar infrastrukturu həm kənd təsərrüfatı istehsalının inkişafının maddi bazasının formalaşdırılması məsələlərinin həllinə bilavasitə təsir edən amil, həm də istehsal olunmuş kənd təsərrüfatı məhsullarının istehlakçılara əlverişli qaydada çatdırılmasının təminatçısı kimi çıxış edir. Bununla əlaqədar, bazar infrastrukturunun formalaşdırılması və təkmilləşdirilməsi bütövlükdə aqrar-sənaye sisteminin inkişaf etdirilməsinin əsas məsələləri sırasında dayanır.

Dövlət müstəqilliyi şəraitində Azərbaycan Respublikası iqtisadiyyatının aqrar sektorunda bazar infrastrukturunun yeni sisteminin formalaşdırılmasına ehtiyac yaranmışdır. Ölkəmizdə əsaslı islahatların uğurla həyata keçirilməsi bu istiqamətdə irəliləyişlərə yol açmışdır. Belə ki, bazar infrastrukturun dirçəldilməsinin təmin edilməsi, bu sahədə yeni obyektlərin şəbəkələrinin təşəkkül tapmasına başlanılmışdır [2].

Kənd təsərrüfatının istehsal vasitələri ilə təminatında yaranmış problemin həlli məqsədilə dövlət kənd təsərrüfatı texnikasının, mineral gübrələrin, ziyanvericilərə qarşı mübarizə vasitələrinin alınması üçün büdcədən vəsait ayırmaqla yanaşı, həm də onların aqrar istehsalçılara çatdırılmasına xidmət edən infrastrukturun formalaşdırılması ilə bağlı tədbirlər həyata keçirilmişdir. Eyni zamanda, dövlət tərəfindən kənd təsərrüfatı məhsullarının reallaşdırılmasına xidmət edən infrastruktur obyektləri şəbəkəsinin genişləndirilməsi və modernləşdirilməsi tədbirlərinin güzəştli şərtlərlə maliyyələşdirilməsinə böyük həcmli vəsaitlər ayrılmışdır.

Aqrar sahədə bazar infrastrukturunun inkişafı üzrə həyata keçirilən tədbirlər kənd təsərrüfatının texniki təminatının yaxşılaşdırılmasına, habelə aqrar sahədə istehsal edilən kənd təsərrüfatı məhsullarının itkilərinin azaldılması və keyfiyyəti saxlanılmaqla istehlakçılara çatdırılmasına şərait yaradır. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, hələlik bazar infrastrukturunun səmərəli fəaliyyət göstərən sistem kimi tam formalaşdırılması təmin edilməmişdir. İnfrastruktur sferasında modern texnologiyaların tətbiqi miqyasları və xidmətlərin keyfiyyəti zəruri tələblər səviyyəsində deyildir. Bazar infrastrukturu sferasında mövcud olan struktur problemlərinin həllinə ehtiyac vardır. Eyni zamanda bazar infrastrukturunun formalaşdırılması və fəaliyyətinin iqtisadi, təşkilati və institusional mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı məsələlərinin həlli xüsusi maraq kəsb edir [3, 7].

Bildiyimiz kimi, aqrar sahənin formalaşması və inkişafında infrastrukturların əhəmiyyəti böyükdür. Ölkənin sosial-iqtisadi inkişaf vəzifələrinin həlli ilə əlaqədar yeni infrastrukturların yaranması, inkişafı və təkmilləşdirilməsi bazar münasibətlərinə uyğunlaşdırılmalıdır. Hər bir ölkədə infrastrukturlar cəmiyyətin artan tələbatına, ehtiyacların artmasına uyğun formalaşdırılmışdır. Belə ki, infrastrukturlar spesifik əlamətlərinə görə başqa sektorlara xidmət göstərən sahələrin məcmusunu ifadə edir. Beləliklə, maddi istehsala və xidmətlərə bilavasitə təsir göstərsə də, infrastruktur orada texnoloji və digər proseslərdən kənarda qalır.

Aqrobiznes sahəsində bazar infrastrukturun inkişafının əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

- *hər bir rayonun təbii və iqlim şəraiti nəzərə alınmaqla kənd təsərrüfatı məhsullarının istehsalının ixtisaslaşması üzrə müvafiq tədbirlərin həyata keçirilməsi;*
- *aqrar sahədə rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının artırılmasının stimullaşdırılması, xammal istehsalı və emalı sahələrinin əlaqəli inkişafı, əsas ərzaq məhsulları ilə özünü təminetmə ilə bağlı tədbirlərin davam etdirilməsi;*
- *kənd təsərrüfatında ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi və bu sahədə təsərrüfat subyektlərinin fəaliyyətinin stimullaşdırılması;*
- *regionlarda kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması və satışı məqsədi ilə istixana, soyuducu və taxıl anbarı komplekslərinin (logistika mərkəzlərinin) yaradılmasının və inkişafının davam etdirilməsi;*
- *şəhərlərdə və regionlarda ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsulları bazarının formalaşması;*
- *ölkədə aqrar sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi və bazar prinsipləri əsasında fəaliyyət göstərəcək yeni strukturların yaradılması.*

Bildiyimiz kimi fermerlər istehsal etdikləri məhsulların satışında tək olmamalı, onlara məhsullarının satışı üçün dövlət yardımı olmalıdır. Fermerin əsas məqsədi məhsul istehsal etməkdir, satışı və digər məsələləri həll etməkdə çətinlik çəkə bilərlər. Hesab edirik ki, dövlətin fermerlərin istehsal etdikləri məhsulların satışında müvafiq köməklikləri göstərməsi məhsul istehsalının artmasına və ən əsası təkrar istehsalın həyata keçirilməsində maliyyə vəsaitinin əldə edilməsinə şərait yarada bilər [1, 5].

**Nəticə**

Hazırda Azərbaycanda istehsal olunan meyvə-tərəvəz məhsulları Rusiya Federasiyası ixrac bazarlarında kifayət qədər rəqabətqabiliyyətlidir. Buna görə də bu məhsullar üzrə ixrac potensialının artırılması üçün yerli istehsalçılar tərəfindən böyük sahələrdə yeni meyvə bağları salınır və istixanalar yaradılır. İstehsal həcminin artırılması ilə yanaşı, ixrac infrastrukturunun da inkişaf etdirilməsi mühüm əhəmiyyətə malikdir. Bu baxımdan dövlət dəstəyi ilə logistik mərkəzlərin qurulmasına başlanılıb.

Bildiyimiz kimi, aqrar sahədə bazar infrastrukturları olmasa tərəqqidən, normal həyat fəaliyyətindən söhbət gedə bilməz. Aqrar istehsala nəqliyyat xidməti inkişaf etdirilməli, logistik mərkəzlərin qurulması davam etdirilməlidir, istehsal olunan məhsulların istehlakçılara avtomobil, hava, su, dəmir yolları ilə müxtəlif yerlərə vaxtında çatdırılması təmin olunmalıdır. Bu infrastruktur olmadan istehsal istehlakı və şəxsi istehlak prosesi pozular.

**Ədəbiyyat**


1. Ataşov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı: Elm, 2006, 336 s.
2. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı)
3. Cəbiyev R.M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı, Bakı, AzTU, 2000
4. İbrahimov İ.H. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri. B: Səda, 2010, 248 s.
5. Məmmədova M.Ə. Ərzaq məhsulları istehsalının mövcud vəziyyəti və onun təkmilləşdirilməsi istiqamətləri / AMEA-nın İqtisadiyyat İnstitutunda keçirilmiş "Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı: Avropa, 2011, s. 283-285.
6. Vəliyev T.S. İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti, Bakı, Elm, 2000.
7. Джабиев Р.М. Рыночная инфраструктура и особенности её формирования, Тренд., №1, 1998.

*Ph.D., dossent* M.A. Mammadova

Agricultural Economics Research Center

**Mechanism of market infrastructure development in the agricultural sector**

Summary

*The article describes the characteristics of the market infrastructure, as well as the requirements for the formation of infrastructure related to the development of the agricultural sector. The article also discusses the main directions of the development of market infrastructure and gives appropriate estimates. The article shows that the presence of a developed market infrastructure in modern times is one of the important factors in expanding agricultural production, as well as delivering products to consumers without losses.*

***Keywords:*** *market infrastructure, agropark, production, innovation, wholesale, retail, logistics.*

*Д.ф.э.н., доцент* М.А. Мамедова

Центр Аграрных Исследований

**Механизм развития рыночной инфраструктуры в аграрном секторе**

*Резюме*

*В статье описаны характеристики рыночной инфраструктуры, а также требования к формированию инфраструктуры, связанной с развитием аграрного сектора. В статье также рассмотрены основные направления развития рыночной инфраструктуры и даны соответствующие оценки. В статье показано, что наличие развитой рыночной инфраструктуры в современное время является одним из важных факторов расширения сельскохозяйственного производства, а также доставки продукции потребителям без потерь.*

***Ключевые слова:*** *рыночная инфраструктура, агропарк, производство, инновации, оптовая торговля, розничная торговля, логистика.*